# Təbib

**Təsisçi:** Azərbaycan Tibb Universiteti http://www.amu.edu.az Qəzet 1933-cü ildən çıxır | №-03 (1720) | 16 feral 2021-ci il |


## Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəlib.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub.

**BU SAYIMIZDA**



## ATU Türkiyə Universitetləri ilə əməkdaşlığı genişləndirir

2


*Tələbələrimizin fəxarət dolu könüllülük fəaliyyəti* · 5 ·

*Tibbi genetikaya həsr olunmuş vebinar* · 3 ·

*Təhsilin başlaması ilə əlaqədar klinikada toplantı* · 3 ·

*Səhiyyə Nazirliyinin baş stomatoloqu Nazim Pənahov: “Müasir stomatoloji texnologiyalar ölkəmizdə uğurla tətbiq olunur"* · 4 ·

*Tələbələrimiz Gənclər Günü münasibətilə təltif olunublar* · 6 ·

# ATU Türkiyə Universitetləri ilə əməkdaşlığı genişləndirir

**Azərbaycan Tibb Universiteti ilə Türkiyənin Selçuk Universitetinin rəhbər şəxsləri arasında onlayn görüş keçirilib**

**ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışının əvvəlində 44 günlük Vətən Müharibəsi dövründə Türkiyə tərəfinin Azərbaycana verdiyi güclü dəstəyə görə təşəkkürünü bildirib. Selçuk Universitetinin rektoru, professor Metin Aksoyu Azərbaycan Tibb Universitetinin adından yeni təyinatı münasibətilə təbrik edən rektor G.Gəraybəyli onu Azərbaycanda görməkdən məmnun olacağını deyib.**

Rektor ATU-nun bir çox universitetlərlə qarşılıqlı protokollar əsasında əməkdaşlıq etdiyini xatırladaraq Selçuk Universiteti ilə də belə bir sazişin olmasının vacibliyindən söz açıb. Qeyd edib ki, ATU və Selçuk Universiteti tədris, elm və bu kimi müxtəlif istiqamətlər üzrə əməkdaşlıq etmək potensialına malikdir. Həmçinin, iki ali məktəb arasında tələbə, rezident və müəllim mübadiləsinin aparılması da önəmlidir. Professor G.Gəraybəyli bütün mümkün istiqamətlərdə ATU-nun əməkdaşlığa tam hazır olduğunu söyləyib.

Selçuk Universitetinin rektoru, professor Dr. Metin Aksoy Türkiyə və Azərbaycan arasında mövcud qardaşlıq münasibətlərinin hər sahəyə sirayət etdiyini vurğulayıb. İki universitet arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığa ehtiyac olduğunu hesab edən rektor M.Aksoy rəhbərlik etdiyi ali məktəb haqqında da məlumat verib. Qeyd olunub ki, Selçuk Universiteti 1975-ci ildə Türkiyənin Konya şəhərində yaradılmış dövlət universitetidir. Universitetdə təhsil ingilis və türk dillərində aparılır. Ölkə daxilində olduğu kimi, ölkə xaricində də ən çox seçilən universitetlər arasında öz yerini tutan Selçuk Universiteti 50-dən çox ölkənin vətəndaşlarına da tədris verir. 70 min tələbəsi ilə elmi fəaliyyət göstərən Universitetin 20-dən çox fakültəsi və peşə məktəbi, konservatoriyası, 5 kolleci, 6 institut və 20 tədqiqat mərkəzi var. Rektor Metin Aksoy ATU-ya hədiyyə edilən 30 tibb kitabını əməkdaşlığın başlanğıcı kimi qiymətləndirib.

*ATU və Selçuk Universiteti tədris, elm və bu kimi müxtəlif istiqamətlər üzrə əməkdaşlıq etmək potensialına malikdir. Həmçinin, iki ali məktəb arasında tələbə, rezident və müəllim mübadiləsinin aparılması da önəmlidir.*






ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev isə universitetlər arasında əməkdaşlığın istiqamətləri, sazişə daxil ediləcək bəndlər haqqında ətraflı danışıb. Prorektor O.İsayev ATU-nun fakültələri, tədris proqramları, yeni açılan tibb bacısı və fizioterapist ixtisaslarının tədrisi haqqında da məlumat verib.

Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova da çıxışında əməkdaşlığın vacibliyini qeyd edərək rezidentlərin mübadiləsi, tələbələrin ortaq proqramlara qoşulması kimi məsələlərin təşkili barədə fikirlərini bölüşüb.

ATU və Selçuk Universiteti arasında imzalanacaq əməkdaşlıq sazişinin digər müddəaları da ətraflı müzakirə olunub.




ATU-nun Tədris şöbəsinin müdiri, dosent Samir Cavadov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev, Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov və Əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubov, Türkiyə tərəfindən isə Selçuk Universitetinin Tibb fakültəsinin dekanı, professor Dr.Yavuz Selvi, Tədris işləri üzrə dekan müavini, professor Dr.Nadire Doğan, Tibb bacısı fakültəsinin dekanı, professor Dr.Sema Yılmaz, Tədris işləri üzrə dekan müavini, professor Dr.Fatma Taşarslan, Diş həkimliyi fakültəsinin dekan müavini, professor Dr.Ercan Durmuş, Tədris işləri üzrə dekan müavini, dosent Dr.Murat Selim Botsalı, Əczaçılıq fakültəsinin dekanı, professor Dr.Hanifi Soylu, dekan müavini, dosent Dr.Esra Maltaş, Akademik təhsil üzrə məsul dekan müavini, dosent Dr.Nuraniye Eruygur iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Təhsilin başlaması ilə əlaqədar klinikada toplantı

*Fevralın 9-da ATU-nun Tədris Terapevtik Klinikasında fevral ayının 15-dən tədrisin əyani olaraq başlaması ilə əlaqədar olaraq toplantı keçirilib*

**Klinikanın direktoru, professor Surxay Musayev normal iş fəaliyyətinə və əyani təhsilə başlanılması ilə bağlı klinika əməkdaşlarını məlumatlandırıb.**





Professor Surxay Musayev qeyd edib ki, hər zaman ölkə vətəndaşlarının sağlamlıqlarının qayğısına qalan Tədris Terapevtik Klinikası dünyanı cənginə almış COVID-19 pandemiyasının ölkəmizdə də yayılması ilə əlaqədar olaraq 2020-ci ilin mart ayının ikinci yarısından etibarən "Pandemiya klinikası" kimi koronaviruslu xəstələri qəbul etməyə başlayıb: "Bu mühüm missiyanı layiqincə yerinə yetirən klinikamızın kollektivi 44 günlük müqəddəs Vətən Müharibəsi dövründə də bütün səy və bacarığını səfərbər edərək, ön cəbhədə döyüş zamanı yaralanmış hərbçilərimizin müalicəsi və reabilitasiyası ilə məşğul olmağa başladı. Noyabr ayında isə COVID-19 xəstələrinin sayının sürətlə artması səbəbindən Nazirlər Kabinetinin qərarı ilə klinikamız yenidən koronaviruslu xəstələrin müalicəsi işinə qoşuldu. Ancaq son günlərdə yoluxmanın azalmasıyla bağlı ölkəmizdə müsbət dinamika müşahidə edirik. Klinikamızda da artıq koronaviruslu xəstələrin olmadığını nəzərə alaraq, biz müvafiq rəhbər orqanların razılığı ilə, tibbi-gigiyenik, epidemioloji qaydalara ciddi əməl etməklə fevral ayının 10-dan etibarən normal iş fəaliyyətinə, fevral ayının 15-dən isə dərslərin əyani keçirilməsinə başlayırıq".

Azərbaycan Tibb Universitetinin Tədris şöbəsinin müdiri, dosent Samir Cavadov da əyani təhsilin başlanılması ilə bağlı çıxış edərək müşavirə iştirakçılarını qəbul edilmiş protokola uyğun qaydalar haqqında məlumat verdi.

İş fəaliyyətinin və əyani təhsilin başlaması ilə əlaqədar klinikanın tam dezinfeksiya olunduğunu da diqqətə çatdıran professor Surxay Musayev müzakirə olunan məsələlərlə bağlı tövsiyələrini verdi.

Sonda həkimlərin və klinika əməkdaşlarının sualları cavablandırıldı və qarşılıqlı müzakirələrlə toplantıya yekun vuruldu.

# Tibbi genetikaya həsr olunmuş vebinar

**Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə növbəti "Klinika - təməl fənlərdə" adlı vebinar keçirilib.**

**Tibbi genetikaya həsr olunmuş bu dəfəki vebinarda I Müalicə-profilaktika, II Müalicə-profilaktika, Stomatologiya, İctimai səhiyyə, Hərbi tibb və Əczaçılıq fakültələrindən 180-ə yaxın tələbə qoşulub.**







I MPF Tələbə Elmi Cəmiyyətinin rəhbəri, t.ü.f.d., dosent Rəna Rzayeva tibbi biologiyanın və genetikanın inkişafının müasir dövrdə böyük əhəmiyyət daşıdığını bildirib.

Açılış nitqindən sonra ATU-nun I Uşaq xəstəlikləri kafedrasının dosenti, t.e.d. Səbinə Qarayeva, Tibbi biologiya və genetika kafedrasının əməkdaşları - dosent Leyla Süleymanova, dosent Əflatun Əzizov, baş müəllim Ramin Həşimov tibbi genetikaya aid müxtəlif mövzularda situasiya tipli məsələlərin genetik və klinik izahını verərək bu məsələlərin diaqnostikası, müalicəsi və s. haqqında ətraflı çıxış ediblər.






*ATU-nun mətbuat xidməti*

# Səhiyyə Nazirliyinin baş stomatoloqu Nazim Pənahov: "Müasir stomatoloji texnologiyalar ölkəmizdə uğurla tətbiq olunur"

**Fevralın 9-u dünyanın bir sıra ölkələrində Beynəlxalq Stomatoloq Günüdür. Ölkəmizin həkim-stomatoloqları da hər ilin bu gününü özlərinin peşə bayramı kimi qeyd edirlər. Bayram ərəfəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş stomatoloqu, Azərbaycan Tibb Universitetinin Ortopedik stomatologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Nazim Pənahovla görüşdük. Ölkədəki stomatoloji vəziyyət, müasir stomatoloji texnologiyaların hansı səviyyədə tətbiqi, gələcək perspektivlər və digər məsələlərlə bağlı bizi maraqlandıran suallara ətraflı cavab aldıq.**

Professor N.Pənahovun fikirlərinə görə, inkişaf etmiş dünya ölkələrində stomatologiya sahəsində istifadə edilən müasir texnologiyaların demək olar ki, hamısı ölkəmizdə də uğurla tətbiq olunur: "Bu sahə digər tibb ixtisasları ilə müqayisədə daha böyük sürətlə inkişaf edir. Stomatoloqlarımız indi 5-6 il öncə istifadə etdikləri texnologiyanın daha təkmil formasından istifadə edə bilirlər."

Özünün stomatoloji sahədə fəaliyyətə başladığı ilk illərdə klinikalarda olan avadanlıqlarla indiki dövrdə tətbiq olunan müasir avadanlıqları da müqayisə edən professor N.Pənahov bildirdi ki, o zaman stomatoloji kabinetlərdə məhdud sayda stomatoloji qurğu sıxılmış hava turbini ilə işləyirdisə, artıq bütün klinikalarımızda ən müasir stomatoloji qurğulardan, ən öndə gedən dişyonulma texnikalarından istifadə olunur: "Sevindirici haldır ki, Amerikada və Avropada hazırda istifadə olunan stomatoloji avadanlıqlar təkcə Bakıda deyil, respublikamızın digər şəhər və rayonlarında da fəaliyyət göstərən stomatoloji klinikalarda uğurla tətbiq olunur. Stomatoloji xidmətin keyfiyyətində xeyli irəliləyiş var. Dünyanın ən inkişaf etmiş ölkələrinin öncül klinikalarında olduğu kimi, ölkəmizdə də ağız boşluğu xəstəliklərinin müayinə və müalicəsi müxtəlif böyüdücülük xassəsinə malik mikroskop altında aparılır."

Professor onu da bildirdi ki, dişlərin estetikası ilə bağlı pasiyentlərin arzu etdikləri hər hansı təklifin stomatoloqlarımız tərəfindən yüksək səviyyədə qarşılanması mümkündür. Həmçinin, lazer texnologiyasının tətbiqi, dişlər çəkilən kimi birbaşa implantların qoyulması, bilavasitə protezlərin hazırlanması, vinirlərlə dişlərə arzu edilən istənilən formanın verilməsi, dişlərin estetikası, funksiyasının tez bir zamanda bərpası və s. pasiyentin ürəyincə olan məsələlərdir.



Xaricdə təklif olunan hansısa son metodikanın yerindəcə öyrənildiyini bildirən professor N.Pənahov qeyd etdi ki, stomatoloqlarımızın xaricdə keçirilən seminarlarda, master-klaslar və təkmilləşdirmə kurslarında aktiv iştirakları və qazandıqları yeni bilikləri respublikamızda uğurla tətbiq etmələri nəticəsində bu gün Azərbaycan stomatologiyası ön pillələrdə dayanır. Təbii ki, sadaladığım müasir texnologiyanın ölkəmizə gətirilərək uğurla tətbiq edilməsi hazırda yaranmasının 90 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Tibb Universitetinin çalışqan və öz üzərlərində daim işləyən məzunlarının vasitəsi ilə mümkün olur. 1956-cı ildən fəaliyyət göstərən, hal-hazırda rəhbərlik etdiyim kafedrada ortopedik stomatologiyanın incəlikləri tələbələrə böyük həvəslə öyrədilir və bu sahə sürətlə inkişaf edir".

**Qabil ABDULLAYEV**

## "Xaricdə magistratura təhsilinin əhəmiyyəti, təhsillə bağlı informasiya mübadiləsi" mövzusunda vebinar

**Azərbaycan Tibb Universitetinin Rezidentura və magistratura şöbəsinin təşkilatçılığı ilə "Xaricdə magistratura təhsilinin əhəmiyyəti, təhsillə bağlı informasiya mübadiləsi" mövzusunda vebinar keçirilib**









Vebinarda Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov çıxış edərək universitetin fəaliyyəti, fakültələr və kafedralar barədə iştirakçılara ətraflı məlumat verib. Bildirib ki, hazırda universitetdə 62 kafedra fəaliyyət göstərir, 7 minə yaxın tələbə təhsil alır ki, onlardan 2500-ü əcnəbi vətəndaşlardır.

Bu sahədə ölkəmizdəki təhsil ocaqları arasında ATU-nun liderlik etdiyini bildirən dosent M.Orucov yeni açılan fakültələrdən və magistratura sahəsində mübadilə proqramlarından söhbət açıb. O, Mevlana proqramının ləğv edildiyini təəssüf hissi ilə dilə gətirərək bu səbəbdən Türkiyədə fəaliyyət göstərən aparıcı universitetlər arasında müəllim-tələbə mübadiləsinin dayandırıldığını qeyd edib.

Rezidentura və magistratura şöbəsinin müdiri, professor Nailə Sultanova öz çıxışında bildirib ki, bu cür vebinarları keçirməkdə əsas məqsəd Türkiyə və digər xarici ölkələrin qabaqcıl universitetləri ilə əməkdaşlığı dərinləşdirmək, magistr və rezidentlər arasında qarşılıqlı mübadilə aparmaq, təhsil proqramlarını bir-birinə uyğunlaşdırmaqdır. Əgər dissertant və doktorantların elmi işlərinin araşdırılması zamanı hər hansı problem yaranarsa, onu aradan qaldırır və lazımi şəraiti yaratmağa çalışırıq.

Vebinarda iştirak edən Rezidentura və magistratura şöbəsinin müdir müavinləri Əfsanə Məmmədova, Gülay Məmmədzadə, Ümumi və toksikoloji kimya kafedrasının assistenti Sara Paşayeva, Hacettepe Universitetindən professorları Vahab Murat Kurulay, İclal Saraçoğlu, Anadolu Universitetindən professor Yusuf Öztürk, Eks-Marsel Universitetindən PhD doktorları Elnur Qarayev, Xuraman Mustafayeva, Ege Universitetindən PhD Hikmət Məmmədov, ATU-nun dissertantı Aytən Şükürova və doktorantı Nərmin Babayevanın çıxışları maraqla qarşılanıb. Vebinar işini işgüzar şəraitdə sual-cavablar əsasında başa çatdırıb.

## Koronavirus qurbanlarının xatirəsinə həsr edilmiş rəqs-etüd

**Azərbaycanın ixtisaslaşmış ilk onlayn səhiyyə kanalı "Medical Media" 2020-ci ildən fəaliyyət göstərir**



Bu günlərdə daha bir yeniliyə imza atan şirkət Azərbaycan Tibb Universitetinin Şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri, tibb elmləri doktoru Məlahət Sultanovanın "COVID-19 pnevmoniyası: diaqnostikasında və menecmentində radioloqun rolu" məqaləsinə rəqs quruluşu verib. İntellektual məhsulu sənət diliylə təqdim edən layihə koronavirus qurbanlarının xatirəsinə həsr olunub.

İsfar Sarabaskinin (piano) və Şəhriyar İmanovun (tar) ifasında səslənən ecazkar musiqinin sədaları altında baş verən hadisələr bədii dildə pandemiyanın həyatımıza gətirdiyi çətinlikləri, insanla virusun amansız mübarizəsini və həkimlərimizin sağlamlığı üçün güzəştsiz ölüm-qalım savaşını ifadə edir.

Fevralın 10-da "Medical Media"nın redaktoru Günel Xəzərin moderatorluğu ilə dünya şöhrətli "SCİENCE" jurnalının hər il keçirdiyi beynəlxalq rəqs festivalı üçün hazırlanan və artıq müsabiqədə iştirakı təsdiq edilən "Son hədd" adlı etüdün təqdimat mərasimi keçirilib. Tibb mütəxəssisləri, incəsənət xadimləri və jurnallistlərin qatıldığı tədbirdə çıxış edənlər təsirli süjet xətti olan rəqs-etüd haqqında öz təəssüratlarını bölüşərək yaradıcı heyətə təşəkkürlərini bildiriblər.



Qeyd edək ki, rəqs-etüdün hazırlanması ideyası cərrah-oftalmoloq Leyda Kazımovaya məxsusdur.

Etüddə rolları aktrisalar Gülər Nəbiyeva, Aygün Fətullayeva, İnci Həşimova və tibb elmləri doktoru Məlahət Sultanova ifa edib.

Kompozisiyanın quruluşçu rejissoru Sədi Məmmədovdur.

Rəqsi Boris Şukşin adına Teatr İnstitutunun məzunu, rejissor Vüsal Mehrəliyev qurub. Rəqs-etüdün baş prodüseri "Medical Media" kanalının təsisçisi Azər Xudiyevdir.

**ATU-nun mətbuat xidməti**

# Tələbələrimizin fəxarət dolu könüllülük fəaliyyəti

**ATU-nun tələbələri Bakı və bölgə xəstəxanalarında yaralı hərbçilərə şərəflə xidmət göstəriblər**

### M.ƏHMƏDOVA:" ERMƏNİLƏRİN NECƏ VƏHŞİ OLDUĞU HƏMİŞƏLİK YADDAŞIMA HƏKK OLDU"



ATU-nun II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Mənsurə Əhmədova sentyabrın 27-dən oktyabrın 10-dək Gəncə Beynəlxalq Xəstəxanasında yaralanmış hərbi qulluqçuların müalicə edilməsində könüllü kimi tibbi yardım göstərib. M.Əhmədova bildirir: "Gəncə şəhərində ermənilərin dinc əhaliyə qarşı terror etməsinə baxmayaraq, biz heç nədən çəkinmədik. Böyük qürur hissi ilə hərbçilərimizə tibbi yardım göstərdik. Gəncəyə atılan raketlərdən biri xəstəxananın yanına düşmüşdü. Həmin vaxt qazimiz mayor Nicat Əmrəliyevin sarğısını dəyişirdim. Raket qəlpələri ətrafa səpələnmişdi. Qəhrəman döyüşçü ermənilərin dinc əhalinin üzərinə raket zərbəsi endirdiyini biləndə həyəcan qarışıq qəzəbini gizlətmədi: "Namərdlər döyüş meydanında qarşı-qarşıya döyüşə bilmirlər, dinc əhalinin üzərinə raket atırlar". Həmin an yaralı vəziyyətdə döyüşə yenidən getməyə can atdı. Mən onu "narahat olmayın, sadəcə yüngül xəsarət alanlar var"-deyərək sakitləşdirməyə çalışdım. Amma N.Əmrəliyevin tez sağalıb, düşmənin döyüş meydanında dərsini verəcəyini görüb, bir daha hərbçilərimizlə qürurlandım. Əmin oldum ki, bu cür qəhrəman zabiti və əsgəri olan Vətən heç zaman düşmən tapdağında qala bilməz. Bir neçə gün sonra xəstəxanamızın qonağı olan qazimiz Kamil Müsəvi ilə söhbətimiz məni fərəhləndirdi. Onun bizimlə və yaralılarla görüşü zamanı vətənpərvərlik ruhunda etdiyi söhbətləri olduqca xoş idi. Amma uşaqlığımın keçdiyi bu gözəl şəhərin küçələrində raket zərbələrinin dağıntılarını görmək məni həm çox kədərləndirdi, həm də doğma Gəncəmə bir daha bağladı. Ermənilərin necə vəhşi olduğunu isə həmişəlik yaddaşıma həkk etdi. ■

### S.İMAMQULİYEVA: "ƏSGƏRLƏRİMİZİN DÖYÜŞ YOLU İLƏ BAĞLI XATİRƏLƏRİNİ DİNLƏMƏK MƏNƏ XÜSUSİ ZÖVQ VERİRDİ"



II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Səidə İmamquliyeva da könüllü olaraq yaralılara tibbi yardım göstərib. S.İmamquliyeva ötən il noyabrın 4-dən 13-dək Tədris Cərrahiyyə Klinikasında qazilərimizin qulluğunda durmaqdan məmnunluq duyur. Vətən Müharibəsi başlayanda rayonda olub. Həmin ərəfədə çox istəyib ki, yaralılara kömək etsin. Amma istəyi reallaşmayıb. Bakıya gələn kimi müraciət edib ki, könüllü olaraq qazilərimizin sağlamlığı keşiyində dayanmaq istəyir: "İzah edə bilməyəcəyim situasiya ilə üzləşdim və xoş hisslər yaşadım. Qazilərimizə xüsusi diqqət və qayğı var idi. Hər kəs biri-birinə mehribanlıqla yanaşırdı. Klinikamızda müalicə alan əsgərlər ailəmizin bir parçası idi. Əsgərlərimizin döyüş yolu ilə bağlı xatirələrini dinləmək, söhbətlərinə qulaq asmaq mənə xüsusi zövq verirdi. Onları dinlədikcə canım qədər sevdiyim vətənimin hər çınqılı, daşı gözlərimdə bir daha böyüdü". ■

### N.ƏHMƏDOVA "HƏR İKİ GÖZÜM VƏTƏNƏ QURBAN OLSUN"- DEYƏN ANADAN DANIŞDI



II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Nərmin Əhmədova da Gəncə Beynəlxalq Xəstəxanasında könüllü olub. O, Gəncəyə atılmış raketi belə xatırlayır: "Gəncə ermənilər tərəfindən ilk dəfə raket zərbəsinə məruz qalan zaman mən gözündən yaralanan hərbçilərimizi müayinə olunmaq üçün gətirmişdim. Bu zaman güclü bir partlayış səsi eşitdim və həmin vaxt nə olduğunu anlamadım. Amma qazimiz Şəmsi Hacıyev mənə "Ermənilər Gəncəni vurdu" - dedi. Bu ərəfədə tələbə yoldaşım Mənsurə Əhmədova da yanıma gəldi. O da Gəncənin raketlə vurulduğunu təsdiqlədi. Biz tələsik yaralıları palataya apardıq. Dinc sakinlərin yaralandığını gördük. Xəstəxanaya yaralıları gətirirdilər. Raket zərbəsindən 26 yaşında gənc bir qadının üz nahiyyəsi tamamilə dağılmışdı. Amma fədakar ana öz körpəsini qoruya bilmişdi. Körpə möhkəm qorxsa da, xəsarət almamışdı. Çox təəssüf ki, 2 körpə anası hər iki gözünü itirdi. Özünə gələn zaman ilk sözü "Vətənə hər iki gözüm də qurban olsun" - deməsi Azərbaycan qadınının vətənə olan sevgisinin bariz nümunəsidir. Gəncəmi dağılmış vəziyyətdə görmək mənə olduqca mənfi təsir göstərdi. Amma Şanlı Ordumuzun çaldığı Qələbə zəfərini görəndə ürəyimə sanki su ələndi. ■

### M.PAŞAYEV: "HEÇ ZAMAN O GÜNLƏRİ UNUTMAYACAM"



II Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Mustafa Kamal Paşayev Bərdə rayon Mərkəzi Xəstəxanasında sentyabrın 29-dan noyabrın 10-dək yaralıların qulluğunda dayanıb. Onun bildirdiyinə görə, xəstəxanaya ən çox gövdə və ətraflarda olan qəlpə, güllə yarası alan hərbçilərimiz gətirilib. Xəstəxanada beyin və döş qəfəsinin ağır zədələnməsinə müdaxilə etmək üçün lazımi avadanlıq olmadığından ilkin tibbi yardım göstərildikdən sonra yaralılar başqa xəstəxanalara təxliyə olunub. M.Paşayev yaralılarımıza tibbi yardım göstərməkdən, onların qulluğunda durmaqdan fəxarət hissi keçirdiyini və bundan sonra da heç vaxt o günləri unutmayacağını deyir. ■

### M.GƏNCƏLİYEVA: "BU YOLLAR BİZİ QARABAĞA APARIRDI"



I Müalicə-profilaktika fakültəsinin tələbəsi Mələk Gəncəliyeva da könüllü olaraq yaralı hərbçilərimizə tibbi yardım etməkdən qürur duyur. O, fəaliyyəti dövründə keçirdiyi hissləri bizimlə belə bölüşür: "İnsanları xilas etmək peşəmin ən ali məqsədidir. Onları həyata, yaxınlarına qaytarmaq, onlara yeni şans qazandırmaq uşaqlıqdan ən böyük arzum olub.

Amma Vətən Müharibəsi dövründə qarşılaşdığım mənzərə tamamilə basqa idi. Qarsımdakı xəstələrin, yaralıların hec biri təsadüf nəticəsində burda deyildilər. Mən öz yaşıdlarımın gələcək qayğıları, şəxsi istəklərini düşünmədən ön cəbhəyə atılaraq Vətən üçün, gələcək nəsillərin rifahı üçün şir kimi döyüşdüklərinin şahidi oldum.

Peşəmin ilk dəfə bu qədər şərəfli, əhəmiyyətli olduğunu hiss etdim.

...Saatlarla oxuduğum kitabların, dinlədiyim seminarların, ağ xalatın bu qədər güclü silaha çevrilməsini görür, yüzlərlə qəhrəmanımızı fəxrlə sağaltmağa çalışırdım. O qəhrəmanları artıq filmlərdə deyil, canlı görürdüm. Yaralılar qəlpə yarasından əziyyət çəkərək, qarşımda uzanmışdı. O yaralar ki, qanı hər qarış torpağın geri qaytarılması üçün axıdılmışdı və sağaldıqca Vətənin işğalda olan əraziləri də sağalırdı. Analar və uşaqlar artıq ağlamır, başını dik tutmuş ısıqlı yollara doğru irəliləyirdi... Bu yollar isə bizi Füzuliyə, Şuşaya, Laçına, bir sözlə Qarabağa aparırdı. ■

### E.SADIQOVA:" QƏLƏBƏ HİSSİNİ YAŞADANLAR HAQLARINI BİZƏ HALAL ETSİNLƏR"



Esmira Sadıqova da ötən ilin oktyabrın 1-dən Naftalan Şəhər Mərkəzi Xəstəxanasında könüllü cərrah köməkçisi kimi iştirak edib. I Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsidir. Xatirələrini bizimlə bölüşəndə çox duyğulandı: "Naftalanda yaşadığım hissləri, gördüyüm görüntüləri ifadə etmək mənim üçün çətin idi. Qəhrəman hərbçilərimizin istək və hərəkətlərini görəndə isə xeyli qürurlanırdım. Ona görə qürurlanırdım ki, ora gələn əsgərlər yaraları ağır olduğu halda "həkim, yaramı sarıyın, döyüşə gedim, dostlarımı orada tək qoymaq istəmirəm"- deyirdilər. Sarğısını dəyişəndə" nə vaxt sağalıb cəbhəyə gedəcəm?", ayağını, qolunu amputasiya edəcəyimiz əsgər "mən bir də döyüş yoldaşlarımın yanına qayıda biləcəyəmmi?" sualını verəndə gözündə Vətən sevgisini görüb olduqca təsirlənirdim. Xəstəxanaya hər gün yaralı əsgərlər daxil olurdu. Həkim kollektivimiz gecəgündüz çalışırdı ki, yaralıların həyatını xilas etsin. Həmin vaxt çox yuxusuz gecələrim olub. Amma çəkilən əziyyətlərə dəydi. Bizim ön və arxa cəbhədə birliyimiz Qələbənin olacağına bir işarə idi. Şükür ki, Zəfər bizim oldu. Bu hissləri bizə yaşadan Şanlı Ordumuza – qazilərimizə, hərbçilərimizə nə qədər təşəkkür etsək, yenə də azdır. Haqqlarını bizə halal etsinlər. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm! ■

### X.ƏZİMZADƏ:" DÖYÜŞDƏ CƏNGAVƏRLİK EDƏN ƏSGƏRLƏRİMİZİ YAXINDAN TANIDIĞIMA ŞAD OLDUM"



I Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Xəzanə Əzimzadə də könülü tələbələrdəndir. Vətən Müharibəsi zamanı yaralılara tibbi yardım etdiyi zaman xeyli qəhrəman hərbçilərimizlə tanış olub. Buna görə özünü şanslı hiss edir: "Yaralı əsgərlərimizə könüllü yardım etmək yaxşı ki, mənə də nəsib oldu. Mən özümü çox şanslı hiss edirəm, çünki döyüşdə cəngavərlik edən əsgərlərimizi yaxından tanıyaraq, onlara kömək edə bildim. Əsgərlərimizin vəziyyətinin günü-gündən yaxşı olduğunu görəndə çox sevinirdim. Ürəyimdən keçirdi ki, nə yaxşı ki, Azərbaycanlıyam və bizi belə qəhrəman oğlanlarımız qoruyur. Ulu Tanrı xalqımızı, ordumuzu qorusun. Qarabağ Azərbaycandır"! ■

### E.SADIQOV: "ƏSGƏRLƏRİMİZƏ ƏLİMDƏN GƏLƏN HƏR CÜR TİBBİ YARDIM GÖSTƏRİRDİM"



ATU-nun II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Eldəniz Sadıqov Vətən Müharibəsinin ilk günündən Ağcabədi RMX-da könüllü olaraq fəaliyyət göstərib. Ağcabədi sərhəd zonasına yaxın olduğu üçün yaralı əsgərlərlə yanaşı, rayon sakinləri də bu xəstəxanaya gətirilirdi: "Əsgərlərə əlimdən gələn hər cür tibbi yardım göstərirdim. Bəzən söhbət zamanı əsgərlərimizin döyüş meydanında göstərdiyi qəhrəmanlıqlar barədə dinləyərkən ağır hisslər keçirirdim. Fəxr edirdim ki, Vətənindən ötrü öz canından, qanından keçməyə hazır olan belə qorxmaz əsgərlərimiz var". Eldəniz Sadıqov Bakıya qayıtdıqdan sonra da ATU-nun Tədris Terapevtik Klinikasında könüllü olaraq xidmətini davam etdirib. Vətən Müharibəsi iştirakçılarına xidmət etdiyinə görə qürur duyan tələbəmiz bu dövrdə həm tibb işçisi, həm də bir vətəndaş kimi çox böyük təcrübə qazandığını bildirir. ■

## Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi tibb və ictimai səhiyyə sahəsində təhsil alan tələbələrlə görüşüb

Fevral ayının 2-də Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Dr. Hande Harmancı tibb və ictimai səhiyyə sahəsində təhsil alan tələbələrlə görüşüb.

Dr. Hande Harmancı Ümumdünya Səhiyyə Təşkilatının dünyada və Azərbaycandakı missiyasından, həyata keçirdiyi layihələr və qarşıya qoyduğu məqsədlərdən bəhs edib və tələbələrin suallarına cavab verib. Görüşdə Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının tələbələri, eləcə də Həkimlər və Təbib Tələbələr İctimai Birliyinin (AzerMDS) üzvləri iştirak ediblər. ■




## ATU ilə Xarkov Milli Tibb Universiteti arasında onlayn tədbir keçirilib

**Azərbaycan Tibb Universiteti ilə Ukraynanın Xarkov Milli Tibb Universiteti arasında ikitərəfli əməkdaşlıq proqramı çərçivəsində növbəti tədbir həyata keçirilib.**




ATU-nun I Uşaq xəstəlikləri kafedrasının dosenti Gülnaz Ağayeva Xarkov Milli Tibb Universitetinin pediatriya ixtisası üzrə həkim-internləri üçün "İnkişaf pediatriyası" mövzusunda onlayn mühazirə oxuyub. Tədbir ATU və XMTU beynəlxalq əlaqələr şöbələrinin birgə təşkilatçılığı sayəsində baş tutub. Mühazirə dinləyicilər tərəfindən maraqla qarşılanıb.

## Dövlət Məşğulluq Agentliyi ilə Ali təhsil müəssisələrinin Karyera Mərkəzlərinin rəhbərləri arasında onlayn görüş olub




**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi də gənclərin məşğulluğunun təmini sahəsində aktiv iştirak etməkdədir.**

**Komitənin sədri Elvin Kərimli bu sahədə atılan addımlar, görülən tədbirlər barədə fikir mübadiləsi aparıb.**

**Görüşdə Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, sədr müavini Cəmaləddin Quliyev və sədr köməkçisi Kamil Bayramlı, agentliyin Peşə hazırlığı və peşəyönümü departamentinin müdiri Fuad Mehdizadə, İnsan resursları departamentinin müdiri Emil Hüseynov, eləcə də Peşəyönümü şöbəsinin müdiri Toğrul Ələkbərov, 25 ali təhsil müəssisəsinin Karyera Mərkəzlərinin rəhbərləri və əməkdaşları iştirak ediblər.**

İdarə heyətinin sədri Mustafa Abbasbəyli agentliklə ali təhsil müəssisələrinin Karyera Mərkəzləri arasında qurulacaq əməkdaşlığın önəmini vurğulayıb: "Cari ildə agentliyin nəzdində Karyera Mərkəzi yaradılmasını nəzərdə tuturuq və bu istiqamətdə işlərə artıq başlamışıq. Gənclərə karyera planlaması ilə bağlı müasir tələb və standartlara uyğun istiqamətlərin verilməsi məqsədilə yaradılacaq Karyera Mərkəzinin tərkibində "CV Master" və "Mobil Peşə" layihələri həyata keçiriləcək, "Hazır" kursları təşkil olunacaq. Bunlardan əlavə isə ali təhsil müəssisələrində mövcud Karyera Mərkəzlərinin Koordinasiya Şurasının yaradılması haqqında təklif irəli sürmüşük. Karyera Mərkəzlərinin Koordinasiya Şurasının yaradılması vahid standartların müəyyən edilməsi və tətbiqi, belə mərkəzi olmayan ali təhsil müəssisələrində Karyera Mərkəzlərinin yaradılmasına dəstək göstərilməsi, metodiki bazanın, yerli müsbət təcrübələrin paylaşılması, xarici təcrübənin araşdırılması və paylaşılmasına dəstək olacaq".

İdarə Heyətinin sədr müavini Cəmaləddin Quliyev öz çıxışında bildirib ki, hazırda peşəyönümü məsləhət xidmətlərinin keçirilməsi üçün Ərazi Məşğulluq Mərkəzləri və Dost Mərkəzlərində peşəyönümü kabinələrinin yaradılması istiqamətində iş aparılır. Burada peşəyönümü məsləhət xidmətlərinin keçirilməsi üçün lazımi bütün alətlər yer alacaq.

Peşəyönümü şöbəsinin müdiri Toğrul Ələkbərov isə yaradılacaq Karyera Mərkəzinin tərkibində fəaliyyət göstərəcək layihələr və kurslar barədə görüş iştirakçılarını məlumatlandırıb. O bildirib ki, burada vətəndaşlara işə qəbul prosesi zamanı yardımçı olacaq konsultasiyalar aparılacaq, CV hazırlanması ilə bağlı məsləhətlər veriləcək, eləcə də şəxsə uyğun uğurlu CV formasının hazırlanmasında dəstək göstəriləcək.

Görüşdə iştirak edən universitetlərin Karyera Mərkəzlərinin nümayəndələri də təmsil etdikləri təhsil müəssislərində Karyera Mərkəzlərinin və Karyera Şurasının fəaliyyətində diqqət ayrılması istədikləri mövzular barədə məlumat veriblər.

Sonda gələcəkdə bu tip müzakirələrin keçirilməsinin vacibliyi vurğulanıb və növbəti görüşlərdə yaradılması planlaşdırılan Şuranın fəaliyyətinin daha detallı müzakirə edilməsi qərara alınıb.

Qeyd edək ki, Dövlət Məşğulluq Agentliyi məşğulluğa kömək sahəsində dövlət siyasətini təmin edir, işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, onların peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması məqsədilə aktiv məşğulluq tədbirlərinin təşkilini, işsizlikdən sığorta vəsaitinin idarə edilməsini, habelə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə əmək bazarının təhlili, qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması ilə bağlı nəzarət tədbirlərini həyata keçirir.

## Tələbələrimiz Gənclər Günü münasibətilə təltif olunublar

### Tələbə Gənclər Təşkilatının sədri "İlin TGT sədri" adına layiq görülüb

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) Gənclər Günü münasibətilə Gənclər Fondunun maliyyə dəstəyi ilə "Dəmir Yumruq, Dəmir Gənclik" adlı tədbir təşkil edib.






Onlayn formatda keçirilən tədbirdə ATGTİ-nin sədri Pərviz Mirələmli 44 günlük Vətən Müharibəsi zamanı gənclərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında birlik nümayiş etdirərək ön və arxa cəbhədə düşmənlə mübarizədə sərgilədiyi şücaətə diqqət çəkib.

Görüş zamanı Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini İntiqam Babayev və Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov tələbələrin Gənclər Gününü təbrik ediblər.

İl ərzində aktiv fəaliyyət göstərən Tələbə Gənclər Təşkilatları, onların sədrləri və fəalları da təltif ediliblər.

ATU Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev il ərzində səmərəli fəaliyyətinə görə "İlin TGT sədri" fəxri adına layiq görülüb. ATU-nun 30 nəfər tələbəsi isə Vətən Müharibəsi, Tovuz hadisələri, pandemiyaya qarşı mübarizədə fəal iştiraklarına və ümumi fəaliyyətlərinə görə mükafatlandırılıblar.■

**ATU-nun mətbuat xidməti**

## ATU THİK İDARƏ HEYƏTİ 2 FEVRAL GƏNCLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ İŞTİRAK EDİB







Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlat İttifaqı Komitəsinin idarə heyəti ilə komitə üzvləri arasında onlayn görüş keçirilib.

Komitənin sədri Elvin Kərimli çıxışına gəncləri 2 fevral Gənclər Günü münasibətilə təbrik edərək başlayıb və bu günün tarixindən, önəmindən bəhs edib: "Bu gün Azərbaycan gəncliyi həqiqətən də ötən illərlə müqayisədə daha çox inkişaf etməkdədir. Elm, incəsənət və digər sahələrdə gənclərimizin fəal iştirakını görürük. Bu, çox sevindirici haldır. Ulu Öndər tərəfindən Gənclər Gününün təsis edilməsi məhz ölkəmizin gələcəyi olan gənclərə böyük etimadın göstəricisidir".

Komitənin sədr müavini Cavid Mustafazadə, Hərbi tibb fakültəsinin Həmkarlar Təşkilatının sədri Vahid Rzayev, İctimai səhiyyə fakültəsinin Həmkarlar Təşkilatının sədr müavini Aydan Əliyeva və digər tələbələr öz fikirlərini bölüşərək müzakirələr aparıblar.

Eyni zamanda bu il Gənclər Gününün xüsusi əhəmiyyət daşıdığı, minlərlə qəhrəman gəncin Vətən Müharibəsində şəhid olduğu vurğulanıb və onların xatirəsi 1 dəqiqəlik sükutla yad olunub.

Sonda Gənclər Günü münasibətilə tələbələr onlayn sertifikatlarla təltif ediliblər.

# ATU əməkdaşlarının məqaləsi beynəlxalq elmi konqresdə sertifikata layiq görülüb

**Türkiyənin paytaxtı Ankarada nüfuzlu universitetlər və "Pearson" jurnalının təşkilatçılığı ilə Beynəlxalq Sosial və Humanitar Elmlər Konqresi (Uluslararası Sosyal ve Beşeri Bilimler Kongresi) təşkil olunub. Onlayn formatda keçirilən elmi konfransda ATU-nun Tibbi və bioloji fizika kafedrasının dosenti İlqar Aslanov və assistenti Sevinc Həsənova iştirak ediblər.**



Konqresdə Türkiyənin aparıcı universitetlərinin və dövlət qurumlarının (İstanbul Esenyurt Universiteti, Qazi Universiteti, Ankara Yıldırım Beyazıt Universiteti, İstanbul Okan Universiteti, Pamukkale Universiteti, Selçuk Universiteti, Qaziantep Universiteti, Milli Təhsil Nazirliyi, Xəzinədarlıq və Maliyyə Nazirliyi) aparıcı müəllim və əməkdaşları ilə yanaşı, Hindistan, Mərakeş və s. ölkələrdən tədqiqatçılar müvafiq seksiyalarda məruzələrlə çıxış ediblər.

ATU-nun əməkdaşları bu nüfuzlu toplantıda "Ölkənin elektron iqtisadiyyata hazırlıq dərəcəsinin dəyərləndirmə əsasında müəyyənləşdirilməsi" adlı məruzə ilə çıxış ediblər. Məqalədə ölkələrin davamlı iqtisadi və sosial inkişafı informasiya texnologiyalarının yüksək səviyyəli inkişafı ilə əlaqələndirilib. Beynəlxalq statistika qurumlarının məlumatlarına əsasən, rəqəmsal iqtisadiyyat sahəsində müxtəlif dövlətlərin qarşılaşdığı problemlər vurğulanıb. Müəlliflər rəqəmsal iqtisadiyyatın inkişafına dair Dünya İqtisadi Forumunun beynəlxalq reytinqinin göstəricilərini də təhlil ediblər. Məqalədə ölkənin elektron iqtisadiyyata hazırlığını müəyyənləşdirmək üçün metodologiyanın hazırlanması üçün meyarlar verilib.

ATU təmsilçiləri İ.Aslanovun və S.Həsənovanın təqdimatı konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb. Onlar xüsusi sertifikatlarla təltif ediliblər. Təqdim olunan məqalə konqresin mətn kitabında çap üçün tövsiyə edilib.

Qeyd edək ki, qiymətləndirmə prosesində bütün elmi işlər ikiqat resenziya vasitəsilə nəzərdən keçirilib. Ümumilikdə konqresə daxil olmuş 90 məqalədən 71-i qəbul olunub.

# "İctimai səhiyyə" istiqaməti üzrə magistratura tədrisi təcrübəsi

Müasir dövrdə bütün dünyada xəstəliklərin yayılmasının qarşısının alınması üzrə məqsədyönlü proqram həyata keçirilməkdədir.



Tibbi ictimaiyyət qeyri-infeksion xəstəliklərin (QİX) sayının artması ilə üzüzə qalmışdır. İldırım sürəti ilə dəyişən belə hallarda tibb xidmətlərinin sürətli reaksiya verməsi və epidemioloji tədbirlərin optimallaşdırılması zərurəti yaranmışdır. Əhalinin ictimai sağlamlığına təsir göstərə biləcək prosesləri idarə etmək və əvvəlcədən proqnozlaşdırmaq üçün ictimai səhiyyənin fundamental əsaslarını və onun fəaliyyət metodlarını dərk etmək xüsusi əhəmiyyət kəsb edir. Həkim olaraq, mən başa düşürdüm ki, səhiyyədə menecment sahəsində baza biliklərə ehtiyacım var.

"İctimai səhiyyə" magistr proqramını mənimsəməyim müxtəlif tibbi aspektlərin, əhalinin sağlamlığının qorunması sahəsindəki sosioloji, iqtisadi, idarəetmə, fəlsəfi problemlərin geniş spektrini konkret tarixi şəraitdə öyrənməyə imkan verdi. Bununla yanaşı, təhsil proqramı çərçivəsində bütün sosial-gigiyenik hadisələrin və amillərin dərin analizini keçirir, habelə, müxtəlif tibb istiqamətlərinin qarşılıqlı əlaqəsini və onların idarə edilməsini analiz edərək, əhaliyə tibbi yardımın göstərilməsinin təşkilini öyrənirdim.

Qeyd etmək lazımdır ki, magistrlərin hazırlanması zamanı ictimai səhiyyə sahəsində siyasət və inzibatçılıq məsələlərinə diqqət yetirilmişdir.

Seçenov Universitetinin N.A.Semaşko adına İctimai sağlamlıq və səhiyyə kafedrası Erasmus+ Programme of the European Union "Improving Healthcare Outcomes in Chronic Disease – Enhancing the Curriculum at Masters level (IHOD)"təhsil layihəsinin iştirakçısı olmuşdur ki, bu da təhsil prosesinin keyfiyyətinin artırılmasına təsir göstərməyə bilməzdi. Professor-müəllim heyəti çevik tədris metodologiyasından istifadə edir və dinamik, fasiləsiz şəkildə öz müəllimlik təcrübəsində yeni tədris metodlarını və magistrlər üçün kursları tətbiq edir, bununla da, onların əmək bazarında rəqabətədavamlılığını artırmağa imkan verirdi.

Erasmus+ IHOD Project-də Avropanın və Asiyanın aparıcı universitetləri iştirak edir.

Magistratura mənə potensialımı açmağa və ictimai səhiyyə sahəsində Avropa əsas səriştələr siyahısına uyğun olan mütəxəssis kimi yetişməyimə kömək etdi. Bu siyahı geniş səriştə komplektinin formalaşdırılmasını nəzərdə tutur.

Magistr diplomuna sahib bir məzun olaraq, mənim üçün ictimai sağlamlığın və səhiyyənin optimallaşdırılması yollarının təkmilləşdirilməsinə dair biliklərin və üsulların gələcəkdə tətbiq edilməsi məsələsi əhəmiyyət kəsb edirdi. Magistraturanı bitirdikdən sonra gələcək elmi hazırlıq üzrə aşağıdakı istiqamətlər mövcuddur: PhD (Rusiyadakı aspiranturanın analoqu) və Doctor of Public Health (Rusiyadakı doktoranturanın analoqu). Bu zaman qəbul üzrə hər bir namizəd mütləq həmin problem üzrə elmi-tədqiqat təcrübəsinə malik olmalıdır. Beləliklə, aspirantura yolunu seçdim, çünki, səhiyyənin qarşısında duran tapşırıqları həll etmək və müasir çağırışlara düzgün reaksiya vermək yalnız elmi axtarış zamanı mümkün olur. ■

**Nazim İSMAYIL-ZADƏ,**
*İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin N.A.Semaşko adına İctimai sağlamlıq və səhiyyə kafedrasının aspirantı*

# Kamal Əkbər oğlu Kəbirlinski



**Azərbaycanın idman ictimaiyyətinə ağır itki üz vermişdir. ATU-nun bədən tərbiyəsi və idman kafedrasının müdiri ("Təbib" idman klubu), respublikanın əməkdar bədən tərbiyəsi və idman xadimi, Prezident təqaüdçüsü, professor Kamal Əkbər oğlu Kəbirlinski ömrünün 85-ci ilində vəfat etmişdir.**

Kamal Kəbirlinski 24 dekabr 1936-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, 1955-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutuna daxil olmuş və 1959-ci ildə oranı bitirmişdir.

K.Kəbirlinski əmək fəaliyyətinə 1959-cu ildən Azərbaycan Tibb Universitetinin Bədən tərbiyəsi və idman kafedrasında başlamışdır.

1964-cü ildə Moskva şəhərində Mərkəzi Dövlət İdman İnstitutunun fiziologiya kafedrasının nəzdində təşkil olunmuş məqsədli aspiranturaya qəbul olmuş, 1968-ci ildə SSRİ məkanında həndbol idmanı üzrə birinci olaraq dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi adını almışdır.

K.Kəbirlinski 1969-cu ildə ATU-nun bədən tərbiyəsi və idman kafedrasına müdir seçilmişdir . Onun rəhbərliyi altında Azərbaycan Tibb Universiteti respublikamızın ali təhsil məktəbləri arasında idmanın ayrı-ayrı növləri üzrə keçirilən yarışlarda yüksək nəticələr əldə etmişdir.

K.Kəbirlinskinin tələbə gənclərin bədən tərbiyəsi və idmana cəlb edilmsində gördüyü işlərlə yanaşı, respublikamızda həndbol idman növünün inkişaf etdirilməsində, eləcə də, elmi-pedaqoji sahədə xidmətləri də böyükdür.

K.Kəbirlinski 1971-ci ildə dosent, 1994-cü ildə isə professor elmi adına layiq görülmüşdür və 68-dən çox elmi məqalənin müəllifidir.

O, hələ gənc yaşlarında, 1959-cu ildə Respublikanın qadınlardan ibarət həndbol komandasının məşqçisi təyin olunmuş və 1969-cu ildən 1989-cu ilə qədər Azərbaycan Həndbol Federasiyasının Prezidenti vəzifəsində çalışmışdır. Onun rəhbərliyi altında bu komanda SSRİ Çempionatlarında 18 dəfə gümüş və bürünc medal, yığma komandalar səviyyəsində isə SSRİ Xalqlarının Spartakiadasında 2 gümüş və 1 bürünc medal qazanmışlar. 1983-cü ildə isə "Avtomobilçi" komandası Avropa Beynəlxalq Həndbol Federasiyasının kubokuna sahib olmuşdur.

K.Kəbirlinski Respublikada bədən tərbiyəsi və idmanın inkişafında göstərdiyi xidmətlərə görə "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" adına, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin fəxri fərmanına layiq görülmüş və Azərbaycan Respublikasının Prezidentinin xüsusi fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

O, ATU-da işlədiyi dövrün 50 ildən çoxunu Bədən tərbiyəsi və idman kafedrasına rəhbərlik etmişdir.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə K.Kəbirlinskiyə Prezident təqaüdü verilmişdir.

Universitetimizin idman şərəfini daim zirvələrə qaldıran tanınmış idman ustası Kamal müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaq.

***Allah rəhmət eləsin!***

**"Təbib" idman klubunun əməkdaşları**

# "Abdominal cərrahi patologiyalara yanaşma qaydaları" adlı kitab hazırlanıb

**Artıq bir neçə ildir ki, Azərbaycan Tibb Universitetində Bariatrik metabolik cərrahiyyə fənni tədris proqramına daxil edilib.**

Bu baxımdan, "Abdominal cərrahi patologiyalara yanaşma qaydaları" adlı milli cərrahi protokolun rəsmi qeydiyyatdan keçməsi böyük nailiyyətdir. Klinistlər üçün nəzərdə tutulan bu metodik tövsiyədə qarın boşluğu orqanlarının (qida borusu, mədə, bağırsaq, qaraciyər, öd yolları, mədəaltı vəz, dalaq) metabolik-bariatrik cərrahiyyə və cərrahi reanimasiyası barədə məlumatlar verilib.

Kitabın müəlliflərindən biri Laparoskopik Bariatrik-Metabolik Cərrah, ümumi cərrah PhD, Op. Dr Tariyel Ömərovun sözlərinə görə, müasir səriştəyönlü tədris proqramına və protokollarına əsaslanaraq hazırlanan metodik tövsiyədə hər bir cərrahi xəstəlik barədə nəzəri biliklərlə yanaşı, diaqnostik yanaşmaya, diaqnostik meyarlara və müalicə yanaşmasına yer verilib. T.Ömərov 570 səhifədən ibarət kitabın hər kəs üçün əlçatan və effektiv bir vəsait olacağını düşünür.

Kitabın ərsəyə gəlməsində onun həmmüəllifləri - AMEA-nın müxbir üzvü, ATU-nun I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov, kafedranın dosenti Babək Zeynalov, kafedranın dissertantı Xatirə Şirinova ilə yanaşı, universitetin I cərrahi xəstəliklər kafedrasının bütün əməkdaşlarının əməyi keçib. Bundan əlavə, respublikanın müxtəlif klinikalarında çalışan peşəkar cərrahlar da bu kitabla bağlı rəylərini veriblər.




Klassik metodik tövsiyələrdən fərqli olaraq, "Abdominal cərrahi patologiyalara yanaşma qaydaları"nda məlumatlar mətn, sözlü özət və qrafik özət (müayinə və müalicə sxemi) formasında verilib. Metodik tövsiyədə 200-ə yaxın cərrahi xəstəlik barəsində mətn, özət və 150-ə yaxın orijinal sxem yer alıb.

Bu kitab ATU-nun 90 illik və I cərrahi xəstəlikləri kafedrasının yaranmasının 100 illik yubileyinə həsr olunub.

Müəllimlərlə yanaşı, digər ixtisaslar üzrə həkimlərin də istifadə edə biləcəyi metodik tövsiyəni klassik çap variantı ilə yanaşı, PDF formatda da əldə edə bilərlər.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN
MÜSABİQƏ ELAN EDİR:

Kafedraların professorları:

- Terapevtik stomatologiya kafedrası - 1 yer
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 3 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 2 yer
- Şüa diaqnostikası və terapiyası kafedrası - 2 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası - 1 yer
- Onkologiya kafedrası - 2 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 1 yer
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- III Daxili xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 3 yer (0,5 vahid)
- Nevrologiya kafedrası - 1 yer (0,5 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,75 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 3 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 3 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 3 yer (0,5 vahid)
- Klinik farmakologiya kafedrası - 2 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Qidalanma və kommunal gigiyena kafedrası - 1 yer

Kafedraların baş müəllimləri:

- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 2 yer
- Patoloji anatomiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer

**Kafedraların müəllimləri:**

- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)
- Hərbi cərrahiyyə kafedrası - 2 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08

# Nüfuzlu "The Lancet" tibb jurnalı: "CoronoVAC" vaksininin heç bir təhlükəsi yoxdur

**Nüfuzlu tibbi jurnal olan "The Lancet" Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksini haqqında geniş məqalə dərc edib**

Məqalədə COVID-19 virusuna qarşı başlanılan vaksinasiya prosesinin əhəmiyyətindən, "CoronoVAC" vaksinindən, onun uğurlu sınaqlarının müsbət nəticələrindən bəhs olunur.

Bildirilir ki, gənclərlə müqayisədə 60 yaşlı və ondan yuxarı insanlar, xüsusilə də kəskin xroniki xəstəliklərdən əziyyət çəkən şəxslər COVID-19 xəstəliyini daha ağır keçirirlər və yaş artdıqca ölüm riski də artır. Bu səbəbdən COVID-19-un dünyada yayılmasının qarşını almaq üçün effektiv və təhlükəsiz vaksinlərin tətbiqi zəruridir.

"CoronoVac" vaksininin COVID-19 əleyhinə inaktivasiya edilmiş peyvənd olduğu bildirilən məqalədə deyilir ki, COVID-19-a yoluxma riski yüksək olan 60 yaş və daha yuxarı şəxslərin bu vaksinə daha çox ehtiyacı var. Bu vaksin qeyd edilən yaş qruplarında




olan şəxslərin təhlükəsizliyinin, dözümlülüyünün və immunogenliyinin artırılması üçün istifadə edilir.

"CoronoVac" vaksini Çinin Hebey (Hebei) əyalətinin Renku (Renqiu) şəhərində təsadüfi üsulla hər iki gözü kor olan insanlarda kliniki şəraitdə test edilib. Belə ki, vaksin 0-28 gün arasında 2 dozada əzələyə inyeksiya edilir. Vaksinasiya prosesində iştirak edən bütün tərəflər - tədqiqatçılar, həkimlər, laborantlar hamısı maskadan istifadə etməlidir və ilk dozadan sonra vaksinasiya olunan şəxsin vaksinə reaksiyası müşahidə edilir. Əvvəlcədən bütün iştirakçılarla razılaşdırıldığı kimi 28 gündən sonra ikinci doza vurulur.

Məqalədə vurğulanır ki, 2020-ci ilin 22 may və 1 iyun tarixləri arasında birinci faza üzrə 72 nəfərin, 12-15 iyun tarixlərində isə ikinci faza üzrə 350 nəfərin üzərində sınaq vaksinlənməhəyata keçirilib. 28 gün ərzində hər hansı əks reaksiyaya rast gəlinməyib.

Araşdırmaların nəticələrinə əsasən "The Lancet" jurnalı bildirir ki, adıçəkilən vaksin yaşlı şəxslərin dözümlülüyünə müsbət təsir edir və heç bir təhlükəsi yoxdur.

Qeyd edək ki, ölkəmiz də Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinini alır. Mərhələli şəkildə ölkəyə gətirilən vaksinlərin ilkin mərhələdə 60 yaşdan yuxarı insanlar, tibb işçiləri, polis əməkdaşları və digər risk qruplarından olan şəxslərə vurulmasına başlanılıb.

# 11 fevral - Ümumdünya Xəstələr Günüdür

**11 FEVRAL 1992-ci ildə Roma Papası II İohann Pavelin təşəbbüsü ilə təsis edilib. Papaya 1991-ci ildə parkinson xəstəliyi diaqnozu qoyulub. O, diaqnoz qoyulandan sonra Xəstələr Gününün qeyd edilməsi təşəbbüsünü irəli sürüb.**

Bu günün qeyd olunmasında başlıca məqsəd xəstələrin ağrı və iztirablarını yüngülləşdirmək və ictimaiyyətin diqqətini onlara göstərilən xidmətin səviyyəsini yüksəltməyə yönəltməkdir. Hər il Ümumdünya Xəstələr Günü çərçivəsində maarifləndirici aksiyalar təşkil edilir, xəstəliklərdən əziyyət çəkən insanlara dəstək məqsədilə müxtəlif tədbirlər keçirilir, xəstəxanalar ziyarət olunur, sağlamlığın qorunması və sağlam həyat tərzinin təbliği istiqamətində profilaktik addımlar atılır.■




## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun Klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

## Etibarsız sayılır

Əczaçılıq fakültəsinin IV kurs, 817A-4 qrup tələbəsi Qubadov Şamo Vahid oğlunun adına verilmiş tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 14C qrup tələbəsi Hacıyev Mir Cəlal Taleh oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 372B qrup tələbəsi Əliyev İlham Məmməd oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, 201B qrup tələbəsi Mahmudov Babək Rəfail oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 117A-22 qrup tələbəsi Əhmədov Nəsrəddin Yamən oğlunun adına verilmiş tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahova qardaşı **Əlikram Pənahovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tədris Terapevtik Klinikasının kollektivi I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizova, anası **Mənsurə xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın assistenti Elnurə Musayevaya qayınatası **Beybut müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahlığı, Tibbi biologiya və genetika kafedralarının əməkdaşları və "Təbib" qəzetinin kollektivi Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilova anası **Solmaz xanım Həsənovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın baş müəllimi Nəzakət Kərimliyə dayısı **Vəli Qocayevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur və universitet daxilində yayılır.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200